# Dubay nəhəngi "Khazar İslands" layihəsinə maraq göstərir



"Avesta Concern"in həyata keçirdiyi "Khazar İslands" layihəsinə nəhəng tikinti şirkətlərinin marağı gün-gündən artır. Dubayın iki ən böyük tikinti şirkətindən biri hesab olunan DAMAC Properties şirkətinin prezidenti Hüsseyn Sacvaninin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfər etməsi də "Khazar İslands" layihəsinə artan marağa bariz nümunədir. Şəxsi təyyarəsi ilə Bakıya gələn DAMAC Properties şirkətinin prezidenti Hüsseyn Sacvani "Khazar İslnads" layihəsinin həyata keçirildiyi ərazidə olub, "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli ilə görüşüb. DAMAC Properties şirkətinin prezidenti Hüsseyn Sacvaniyə rəhbərlik etdiyi şirkət, onun həyata keçirdiyi layihələr və "Khazar İslands" haqqında geniş məlumat verən "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli əməkdaşlığa hazır olduqlarını da hörmətli qonağın diqqətinə çatdırıb. DAMAC Properties şirkətinin prezidenti Hüsseyn Sacvani də öz növbəsində rəhbərlik etdiyi şirkət, onun yalnız Dubayda deyil, eyni zamanda Qətər, Səudiyyə Ərəbistanı, İraq, İordaniya, Livan və digər ölkələrdə həyata keçirdiyi layihələr haqqında məlumat verib. Dubaylı iş adamı bildirib ki, bu günə kimi əsasən Yaxın Şərq ölkələrində fəaliyyət göstərməyə üstünlük versələr də, indi dünyanın başqa regionlarında da fəaliyyət göstərmək istəyirlər. Bu mənada "Khazar İslands" layihəsinin bir başlanğac ola biləcəyinə, bu layihənin onların Azərbaycan və ümumiyyətlə Cənubi Qafqazda fəaliyyətə başlamalarına təkan verə biləcəyini qeyd edib. "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli "Khazar İslands" layihəsinə dünyanın nəhəng tikinti şirkətlərinin maraq göstərdiyini, bir neçə şirkətlə əməkdaşlığın təməlinin qoyulduğunu bildirib və DAMAC Properties şirkəti ilə də əməkdaşlığa hazır olduqlarını bəyan edib. Danışıqların sonunda əməkdaşlığın sürətləndirilməsi üçün qərar qəbul edilib.

Xatırlatmaq istərdik ki, DAMAC Properties şirkəti hazırda Səudiyyə Ərəbistanının ikinci ən böyük şəhəri və maliyyə paytaxtı hesab olunan Ciddədə Versace Home, Dubayda DAMAC Maison Tower və DAMAC Towers by Paramount, eləcə də Akoya DAMAC kimi nəhəng layihələr həyata keçirir. DAMAC Properties şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşuna marağı daha da artıra bilər.

**Xaqani KOSAYEV,**
**"Respublika".**